Tələbə qəbulu haqqında elan

# Tələbə Qəbulu üzrə Dövlət Komissiyası 2013/2014-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu elan edir

1. Ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizələrin qəbulu “Ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu qaydaları”na (bax: “Abituriyent” jurnalının 2013-cü il 1-ci sayı, səh. 3) uyğun olaraq internet vasitəsilə aparılır.

2. Qəbul imtahanlarında iştirak etmək istəyən abituriyentlər:
2.1. TQDK-nın müvafiq internet səhifəsinə (tqdk.gov.az/erizebak) daxil olub, şəxsiyyəti təsdiq edən sənədindən və TQDK-nın virtual ödəmə kartından istifadə etməklə aprelin 9-dan mayın 17-dək "Abituriyentin elektron ərizəsi" formasını doldururlar (virtual ödəmə kartını internet ödəmə və ya SMS xidmətləri vasitəsi ilə əldə etmək olar. Ətraflı məlumat jurnalın 7-9-cu səhifələrində və tqdk.gov.az/erizebak səhifəsindəki aktual keçidlərdə verilmişdir).
2.2. “Abituriyentin elektron ərizəsi” formasını doldurduqdan sonra aşağıda göstərilən tarixlərdə ərizələrinin təsdiqini təmin edirlər. Ərizənin təsdiqi TQDK-nın məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilir (ərizənin hansı üsulla təsdiq ediləcəyi barədə məlumat proqram tərəfindən “Abituriyentin elektron ərizəsi” forması təsdiq edilənədək ərizəyə hər dəfə daxil olarkən ekranda əks etdirilir):
2.2.1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini aprelin 9-dan mayın 17-dək Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən elektron ərizə səhifəsindəki müvafiq düyməni basmaqla özləri təsdiq edirlər (bax: jurnalın 7-9-cu səhifələrində “Abituriyentin elektron ərizəsi”nin doldurulma qaydası):
Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini 2012/2013-cü tədris ilində bitirən abituriyentlər;
Azərbaycan Respublikasının ilk-peşə ixtisas təhsili müəssisələrini 2012/2013-cü tədris ilində bitirən qız abituriyentlər;
2011/2012-ci və 2012/2013-cü tədris illəri üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə verib onu təsdiq etdirmiş qız abituriyentlər.
Qeyd: Xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul ol¬maq istəyən bütün abituriyentlər elektron ərizələrini tələb olunan sənədləri təqdim etməklə müvafiq təhsil müəssisəsində yaradılmış SQK-da təsdiq etdirirlər.
2.2.2. Digər abituriyentlər elektron ərizələrini tələb olunan sənədləri (bax: 5-ci bənd) təqdim etməklə aprelin 15-dən mayın 17-dək müvafiq SQK-da təsdiq etdirirlər. SQK-lar hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 9-dan 17-dək fəaliyyət göstərirlər:

Azərbaycanda təhsil almış Azərbaycan Respublikasının vətəndaşları (2.2.1-ci bənddə göstərilən kateqoriyalara daxil olan abituriyentlər istisna olmaqla) ərizələrini aşağıdakı təhsil müəssisələrində

yaradılmış SQK-larda təsdiq etdirirlər:

Bakı Dövlət Universiteti
(Bakı ş., Z.Xəlilov küçəsi, 23);
Azərbaycan Texniki Universiteti
(Bakı ş., H.Cavid prospekti, 25);
Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı ş., Ü.Hacıbəyov küçəsi, 34);
Azərbaycan Turizm İnstitutu
(Bakı ş., Koroğlu Rəhimov küçəsi, 822/823-cü məhəllə);
Azərbaycan Müəllimlər İnstitutu
(Bakı ş., Akademik H.Əliyev küçəsi,104);
Qafqaz Universiteti
(Sumqayıt şossesi 16-cı km);
Xəzər Universiteti
(Bakı ş., Məhsəti küçəsi,11);
"Azərbaycan" Universiteti
(Bakı ş., Yasamal r-nu, General A.Abbasov prospekti, 84 – Lider TV-nin yaxınlığında);
Bakı Biznes Universiteti
(Bakı ş., H.Zərdabi küçəsi,88);
Azərbaycan Dövlət Aqrar Universiteti
(Gəncə ş., Atatürk prospekti, 262);
Gəncə Dövlət Universiteti
(Gəncə ş., Ş.İ.Xətai prospekti, 187);
Azərbaycan Texnologiya Universiteti
(Gəncə ş., H.Əliyev prospekti, 103);
TQDK-nın Naxçıvan MR Regional Bölməsi
(Naxçıvan ş., Nizami küçəsi, 10);
Sumqayıt Dövlət Universiteti
(Sumqayıt ş., 43-cü məhəllə);
Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialı
(Sumqayıt ş., 16-cı məhəllə, 38"a");
TQDK-nın Lənkəran Regional Bölməsi
(Lənkəran ş., H.Aslanov xiyabanı 52);
Mingəçevir Politexnik İnstitutu
(Mingəçevir ş., D.Əliyeva küçəsi, 21);
Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialı
(Mingəçevir ş., H.Əliyev prospekti, 51);
Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialı
(Şəki ş., M.Rəsulzadə prospekti, 305);
Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialı
(Qazax ş., H.Əliyev prospekti, 150);
Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialı
(Ağcabədi ş., M.Rəsulzadə prospekti, 210);
Azərbaycan Müəllimlər İnstitutunun Cəlilabad filialı
(Cəlilabad ş., M.Hüseyn küçəsi, 20);
Azərbaycan Müəllimlər İnstitutunun Quba filialı
(Quba ş., Fətəlixan küçəsi, 4);

Azərbaycan Müəllimlər İnstitutunun Salyan filialı
(Salyan ş., B.Talıblı küçəsi, 1);
Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı filialı
(Şamaxı ş., Şəhriyar qəsəbəsi, Azadlıq küçəsi, 1);
Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialı
(Zaqatala ş., Əzizbəyov küçəsi, 4).

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (2.2.1-ci bənddə göstərilən kateqoriyalara daxil olan abituriyentlər istisna olmaqla), həmçinin xaricdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları ərizələrini TQDK-da və onun regional bölmələrində yaradılmış SQK-larda təsdiq etdirirlər:
TQDK (Bakı ş., Akademik H.Əliyev küçəsi, 17);
TQDK-nın Naxçıvan MR Regional Bölməsi (Naxçıvan ş., Nizami küçəsi, 10);
TQDK-nın Gəncə Regional Bölməsi (Gəncə ş., H.Əliyev meydanı, İnzibati bina);
TQDK-nın Lənkəran Regional Bölməsi (Lənkəran ş., H.Aslanov xiyabanı 52);
TQDK-nın Quba Regional Bölməsi (Quba ş., Fətəlixan küçəsi, 8);
TQDK-nın Şəki Regional Bölməsi (Şəki ş., M.Rəsulzadə prospekti, 182);
TQDK-nın Şirvan Regional Bölməsi (Şirvan ş., Rəsulzadə küçəsi, 19);
TQDK-nın Göyçay Regional Bölməsi (Göyçay ş., Rauf İsayev küçəsi, 43);
TQDK-nın Ağcabədi Regional Bölməsi (Ağcabədi ş., Faiq Əlizadə küçəsi, 1).

Gürcüstan Respublikasında yaşayan azərbaycanlılar ərizələrini Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialında (Qazax ş., H.Əliyev prospekti, 150) yaradılmış SQK-da təsdiq etdirə bilərlər.

3. Xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul ol¬maq istəyənlər ərizələrini təsdiq etdirmək üçün müvafiq təhsil müəssisəsində yaradılmış SQK-ya 5-ci bənddə qeyd olunan sənədlərlə yanaşı sağ¬lam¬lıq və fiziki vəziyyətləri haqqında arayış və özləri haqqında məlumat təqdim etməlidirlər (bax: “Abituriyent” jurnalının 2013-cü il 1-ci sayı, səh. 182-189). Cari ilin məzunları təhsil haqqında sənədin əvəzinə təhsil müəssisəsi tərəfindən verilən və abituriyentlərin buraxılış sinfində (kursunda) oxuduqlarını təsdiq edən arayışı da (Əlavə 3) təqdim edirlər. 16 yaşı 2013-cü il aprelin 30-dək tamam olmayan abituriyentlərə verilən arayışa (Əlavə 4) abituriyentin 3x4 sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir.

4. Məhdud fiziki imkanlı abituriyentlər üçün imtahan zamanı zəruri şəraitin yaradılması məqsədi ilə bu abituriyentlər ərizələrini hansı üsulla təsdiq etdirdiklərindən asılı olmayaraq tqdk.gov.az/mfii internet səhifəsinə daxil olub qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçmək üçün tələb olunan məlumatları müvafiq formanın sahələrinə daxil etmək, əlilliyi təsdiq edən sənədin (vəsiqə, arayış və s.) skan edilmiş surətini həmin forma vasitəsi ilə TQDK-ya ötürmək lazımdır.
Sənədlərini şəxsən təqdim etmək istəyən məhdud fiziki imkanlı abituriyentlər TQDK-ya və ya onun regional bölmələrinə müraciət edə bilərlər.
Qeydiyyatdan keçmiş məhdud fiziki imkanlı abituriyentlər imtahana gələn zaman digər tələb olunan sənədlərlə yanaşı əlilliyi təsdiq edən sənədin əslini də mütləq özləri ilə gətirməlidir.

5. Elektron ərizələrini SQK-larda təsdiq etdirməli olan abituriyentlər SQK ya aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:
- tam orta, orta ixtisas və ya ali təhsili haqqında sənədi:
a) əvvəlki illərin məzunları sənədin əslini;
b) ümumi təhsil müəssisələrini əvvəlki illərdə bitirib attestat ala bilməyən, lakin cari ildə buraxılış imtahanına buraxılan abituriyentlər məzunu olduqları təhsil müəssisəsi tərəfindən verilən və

abituriyentlərin buraxılış imtahanına buraxılmasını təsdiq edən arayışı (Əlavə 5);
- şəxsiyyəti təsdiq edən sənədin əslini:
a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan şəxslər də daxil olmaqla) şəxsiyyət vəsiqəsini;
b) əcnəbilər şəxsi pasportları və ya icazə vəsiqələrini, vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini və ya icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;
- hərbi bilet və ya çağırışçı şəhadətnaməsini.

Ali və ya orta ixtisas təhsili olan abituriyentlər yuxarıda qeyd olunan sənədlərlə yanaşı SQK-ya aşağıdakıları da təqdim etməlidirlər:
- təhsil aldıqları müəssisə tərəfindən verilən və ali (orta ixtisas) təhsilinin dövlət hesabına olub-olmamasını təsdiq edən arayışı (Əlavə 6);
- attestatın əslini və ya məzunu olduqları təhsil müəssisəsi tərəfindən verilən müəyyən olumuş formada attestat qiymətləri göstərilən arayışı (Əlavə 7).

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, yuxarıda qeyd olunan sənədlərlə yanaşı, onların notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini də SQK-ya təqdim edirlər.

6. 1978-1995-ci il təvəllüdlü (1995-ci il iyulun 30-na qədər anadan olmuş) 35 yaşınadək olan çağrışçıların ali və orta ixtisas təhsili müəssisələrinə sənəd vermək üçün möhlət haqqında arayışı və hərbi sənədlərində bu barədə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qeydiyyatı olmalıdır. Hərbi qeydiyyatın aparılması Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.
Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlərin çağırış yaşlı vətəndaşlarının hərbi sənədlərində müvafiq qeydiyyat onların daimi yaşayış yerlərinin hərbi komissarlıqları tərəfindən aparılır.

7. Ali və orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarında təhsil almaq istəyən abituriyentlər elektron ərizələrini təsdiq etdirdikdən sonra, mayın 1-dən 20-dək TQDK tərəfindən yaradılmış müvafiq Qabiliyyət İmtahanı Komissiyalarına (QİK) tələb olunan sənədləri və yaradıcılıq fəaliyyətinə dair işləri təqdim etməklə seçmə turda iştirak edirlər. QİK-də abituriyentlərin seçdikləri xüsusi qabiliyyət tələb edən ixtisaslara yararlılığı yoxlanılır və yoxlamadan müvəffəqiyyətlə keçənlər qeydiyyata alınırlar. Qeydiyyata alınmış abituriyentlər TQDK tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilən test imta¬hanlarında iştirak edirlər. Test imtahanlarında topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödəyən abitu¬riyentlər müəyyən edilmiş cədvəl üzrə qabiliyyət imtahan¬larında iştirak edirlər.
Qabiliyyət imtahanlarının keçirilməsi ilə bağlı bütün məlumatlar “Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqə şərtləri”ndə (bax: səh. 11-də) və “Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqə şərtləri”ndə verilmişdir.

8. Milli Aviasiya Akademiyasının I qrup ixtisaslarında təhsil almaq istəyən abituriyentlər ərizələrində imtahan verəcəyi xarici dil kimi ingilis dilini seçməlidirlər.
Milli Aviasiya Akademiyasının “Uçuş mühəndisliyi” ixtisasına 23 yaşına çatmamış oğlan abituriyentlər, “Hava nəqliyyatının hərəkətinin idarə olunması mühən¬disliyi” ixtisasına isə 23 yaşına çatmamış həm oğlan, həm də qız abituriyentlər ərizə verə bilərlər.
Milli Aviasiya Akademiyasının “Uçuş mühəndisliyi” və “Hava nəqliyyatının hərəkətinin idarə olunması mühəndisliyi” ixtisaslarında təhsil almaq istəyən abituriyentlər ərizələrini təsdiq etdirmək

üçün sənədlərini bilavasitə bu təhsil müəssisəsində yaradılmış SQK-ya təqdim edib, xüsusi tibbi müayinədən keçirlər. Bu ixtisaslarda təhsil almaq istəyən abituriyentlər xüsusi tibbi müayinədən əlavə "Psixofizioloji peşə seçimi" və "Fiziki hazırlıq" üzrə xüsusi qabiliyyət müsabiqələrindən keçməlidirlər. Müayinə və müsabiqələrdən müvəffəqiyyətlə keçən abituriyentlər ərizələrini Milli Aviasiya Akademiyasında yaradılmış SQK-da təsdiq etdirirlər.

9. Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi energetik qurğularının istismarı mühəndisliyi", "Dəniz naviqasiyası mühəndisliyi" və "Elektrik mühəndisliyi" ixtisaslarında yalnız oğlan abituriyentlər təhsil ala bilərlər.

10. Azərbaycan Tibb Universitetinin "Hərbi həkim işi" ixtisasında 15.09.2013-cü il tarixinədək 17 yaşı tamam olan, lakin 19 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları olan oğlanlar təhsil ala bilərlər. Bu ixtisas üzrə təhsil almaq istəyən abituriyentlər aprelin 1-dən mayın 11-nə qədər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi rəisinin adına ərizə ilə müraciət etməli, bundan sonra hərbi tibb fakültəsində hərbi həkim komissiyasından keçməlidirlər.
Naxçıvan Muxtar Respublikasında yaşayanlar ərizələrini Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyə təqdim edib, həmin təhsil müəssisəsində hərbi həkim komissiyasından keçməlidirlər.
Hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçən abituriyentlər ərizələrini komissiyadan keçdikləri təhsil müəssisəsində yaradılmış SQK-da təsdiq etdirirlər.

11. Bakı İslam Universitetində təhsil almaq istəyən abituriyentlər ümumi qaydada elektron ərizələrini təsdiq etdirdikdən sonra iyulun 1-dən 6-dək bu təhsil müəssisəsində dini-psixoloji komissiyadan keçməlidirlər.

12. Azərbaycan Dillər Universitetinin ixtisaslarında ("Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", "Dil və ədəbiyyat müəllimliyi (rus dili və ədəbiyyatı müəllimliyi)", "Filologiya (Azərbaycan dili və ədəbiyyatı)", "İbtidai sinif müəllimliyi" və "Beynəlxalq münasibətlər" ixtisasları istisna olmaqla) təhsil almaq istəyən abituriyentlərin imta¬han verəcəyi xarici dil seçiminə aşağıdakı məhdudiyyətlər qoyulur:
- "Xarici dil müəllimliyi (alman dili)", "Tərcümə (alman dili)", "Dil və ədəbiyyat müəllimliyi (alman dili və ədəbiyyatı müəllimliyi)", "Regionşünaslıq (Almaniya üzrə)" və "Filologiya (alman dili və ədəbiyyatı)" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər ərizələrində imtahan verəcəyi xarici dil kimi alman dilini seçməlidirlər;
- "Xarici dil müəllimliyi (fransız dili)", "Tərcümə (fransız dili)", "Dil və ədəbiyyat müəllimliyi (fransız dili və ədəbiyyatı müəllimliyi)", "Regionşünaslıq (Fransa üzrə)" və "Filologiya (fransız dili və ədəbiyyatı)" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər ərizələrində imtahan verəcəyi xarici dil kimi fransız dilini seçməlidirlər;
- digər ixtisaslarda təhsil almaq istəyən abituriyentlər isə imtahan verəcəyi xarici dil kimi ingilis dilini ("Regionşünaslıq (Ərəb ölkələri üzrə)" ixtisasında ingilis və ya ərəb dilini) seçməlidirlər.

Xəzər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili)", "Filologiya (ingilis dili və ədəbiyyatı)" və "Tərcümə (ingilis dili)" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər ərizələrində imtahan verəcəyi xarici dil kimi ingilis dilini seçməlidirlər.

13. Rus bölməsinə sənəd verən abituriyentlər "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən "Azərbaycan dili" fənnindən test imtahanı verirlər. Bu imtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir, "məqbul" alanlar qəbul

imtahanlarına buraxılırlar. Bu imtahanda abituriyentlərə 30 test tapşırığı təqdim edilir. Hər düzgün cavab bir balla qiymətləndirilir. Səhv cavablar yekun bala təsir göstərmir. Abituriyentin “məqbul” alması üçün onun topladığı bal 15-dən az olmamalıdır.
Rus bölməsinə sənəd verən abituriyentlər üçün “Azərbaycan dili” fənnindən imtahan iki dəfə – 2013-cü il mayın 19-da Bakı şəhərində və digər bölgə mərkəzlərində, iyunun 23-də isə yalnız Bakı və Naxçıvan şəhərlərində keçirilir. Mayın 19-da keçirilən imtahanda iştirak etmək istəyənlər ərizələrinin mayın 8-dən gec olmayaraq təsdiqini təmin etməlidirlər. Bu imtahanda iştirak edə bilməyən və yaxud “qeyri-məqbul” alan abituriyentlər ikinci imtahanda iştirak edə bilərlər.
Rus bölməsinə sənəd verən abituriyentlər “Azərbaycan dili” fənni üzrə imtahanda iştirak etmək üçün müəyyən olunmuş tarixlərdə iş nömrəsindən və şifrdən istifadə etməklə internet vasitəsilə “İmtahana buraxılış vərəqəsi”ni çap edirlər.
Abituriyent imtahana gələrkən mütləq aşağıdakı sənədləri özü ilə gətirməlidir:
- İmtahana buraxılış vərəqəsini;
- Şəxsiyyəti təsdiq edən sənədin əslini:
a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan vətəndaşlar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;
b) əcnəbilər şəxsi pasportları və ya icazə vəsiqələrini, vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini və ya icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;
14. Ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Quba, Şirvan, Göyçay və Ağcabədi şəhərlərində keçirilir.
Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasında yaşayan və ərizələrini özləri və ya orada yaradılmış SQK-larda təsdiq etdirən abiturientlər imtahan verirlər.

15. Qəbul imtahanında iştirak etmək üçün abituriyentlər müəyyən olunmuş tarixlərdə iş nömrəsindən və şifrdən istifadə etməklə internet vasitəsilə “İmtahana buraxılış vərəqəsi”ni çap edirlər.
Abituriyent qəbul imtahanına gələrkən mütləq aşağıdakı sənədləri özü ilə gətirməlidir:
- İmtahana buraxılış vərəqəsini;
- Şəxsiyyəti təsdiq edən sənədin əslini;
a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan vətəndaşlar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;
b) əcnəbilər şəxsi pasportları və ya icazə vəsiqələrini, vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini və ya icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

16. İmtahanda abituriyentlərə ixtisas qrupları üzrə hər bir fəndən 25 test tapşırığı təqdim olunur. Hər ixtisas qrupunda iki fənn üzrə son 5 sual açıq tipli test tapşırıqlarıdır. İxtisas qrupları üzrə bu fənlər aşağıdakılardır:
I – riyaziyyat, fizika;
II – riyaziyyat, coğrafiya;
III – riyaziyyat, tarix;
IV – riyaziyyat, kimya.

Test tapşırıqlarının cavablandırılmasına ümumilikdə 3 saat vaxt ayrılır.

17. Abituriyentlərin qəbul imtahanlarında topladıqları ballar elan olunduqdan sonra ali təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar üzrə internet vasitəsilə ixtisas seçimi aparılır. İxtisasları

seçib müsabiqədə iştirak etmək üçün abituriyentin topladığı ümumi balı ilə yanaşı, onun imtahan verdiyi hər bir fənn üzrə ayrılıqda topladığı nisbi balı da TQDK tərəfindən müəyyən edilmiş tələblərə uyğun olmalıdır.
Müsabiqədə iştirak etmək üçün abituriyentlərin nəticələri aşağıdakı tələbləri ödəməlidir:
- III ixtisas qrupunda müsabiqəyə ümumi balı 300-dən, digər qruplarda isə 250-dən az olmayan abituriyentlər buraxılırlar. Bu zaman abituriyentin hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmamalıdır (Azərbaycan Dillər Universitetinin “Tərcümə (dillər üzrə)”, “Beynəlxalq münasibətlər” və “Regionşü¬naslıq (regionlar üzrə)” ixtisaslarının müsabiqəsində iştirak etmək istəyən abituriyentin xarici dil fənni üzrə nisbi balı 40-dan az olmamalıdır).
- Ümumi balı 350 və daha çox olan abituriyentlərin müsabiqəyə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur (Azərbaycan Dillər Universitetinin “Tərcümə (dillər üzrə)”, “Beynəlxalq münasibətlər” və “Region¬şü¬naslıq (regionlar üzrə)” ixtisasları üzrə xarici dil fənni istisna olmaqla).
- Azərbaycan Dövlət Aqrar Universitetinin IV qrupa daxil olan ixtisaslarının müsabiqəsində abituriyentlərin fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq edilmir.
- Bakı İslam Universitetinin ixtisasları üzrə müsabiqədə ümumi balı 100-dən az olmayan abituriyentlər (onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq edilmir) iştirak edirlər.
- Xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verən abituriyentlər ilk növbədə həmin ali təhsil müəssisələrinin müvafiq ixtisası üzrə müsabiqədə iştirak edirlər. Abituriyent yalnız bir xüsusi təyinatlı ali təhsil müəssisəsinin ixtisasları üzrə müsabiqədə iştirak edə bilər. Müsabiqədən keçməyən abituriyentlərə həmin ixtisas qrupuna daxil olan digər ixtisaslar üzrə keçirilən müsabiqədə ümumi qaydada iştirak etmək imkanı verilir.
Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqədə iştirak etmək üçün qoyulan tələblər qəbul imtahanlarının nəticələri elan olunduqdan sonra TQDK tərəfindən müəyyən edilir.

18**. Ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə internet vasitəsilə ixtisas seçimi aparılır. Orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək şərtləri aşağıdakı şəkildədir:
- I qrup ixtisasların müsabiqəsində ali təhsil müəssisələrinə I, II, III və IV qruplar üzrə qəbul imtahanlarında topladıqları ümumi balı 100-dən az olmayan abituriyentlər iştirak edə bilərlər.
- II qrup ixtisasların müsabiqəsində ali təhsil müəssisələrinə I və IV qruplar üzrə qəbul imtahanlarında topladıqları ümumi balı 100-dən az olmayan abituriyentlər iştirak edə bilərlər.
- III qrup ixtisasların müsabiqəsində ali təhsil müəssisələrinə III qrup üzrə qəbul imtahanında topladıqları ümumi balı 100-dən az olmayan abituriyentlər iştirak edə bilərlər.

19**. Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:
- təhsil haqqında sənədə (attestata) “Azərbaycan dili” (təlim Azərbaycan dilində olan məktəblərdə), “Rus dili” (təlim rus dilində olan məktəblərdə), “Gürcü dili” (təlim gürcü dilində olan məktəblərdə), “Ədəbiyyat”, “Xarici dil”, “Riyaziyyat”, “Azərbaycan tarixi”, “Ümumi tarix”, “Fizika”, “Kimya”, “Biologiya”, “Coğrafiya” fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;
- test imtahanının əsas fənləri üzrə nisbi balların cəmi;
- test imtahanının əsas fənləri üzrə düzgün cavabların sayının cəmi;
- test imtahanı fənlərinin üstünlük dərəcəsini nəzərə almaqla həmin fənlərdən ayrılıqda toplanılan nisbi balların miqdarı;
- test imtahanının bütün fənləri üzrə bütövlükdə düzgün cavabların sayı;
- test imtahanı fənlərinin üstünlük dərəcəsini nəzərə almaqla ayrılıqda həmin fənlər üzrə düzgün cavabların sayı.
20. Abituriyentlər müəyyən olunmuş müddətdə imtahan nəticələri ilə əlaqədar TQDK tərəfindən

yaradılan Apelyasiya Komissiyasına müraciət edə bilərlər. Apelyasiya Komissiyasına abituriyent şəxsiyyəti təsdiq edən sənəd təqdim etməklə, şəxsən müraciət etməlidir.

21. Qəbul kampaniyası TQDK tərəfindən hazırlanmış normativ sənədlərlə nizamlanır. Qəbul kampaniyası dövrü abituriyentin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:
saxta sənəd təqdim etmək;
imtahanlara mobil telefon, kalkulyator, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;
yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla imtahan binasına girmək, özü ilə siqaret gətirmək;
səbəbindən asılı olmayaraq imtahan zalında yerini dəyişmək, gəzişmək, yerindən durmaq, "İmtahan başlandı!" elan olunan andan 2 saat müddət keçənədək və imtahanın qurtarmasına qal¬mış son 15 dəqiqə ərzində zaldan çıxmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq;
başqasının cavab kartına, sual kitabçasına baxmaq və ya öz cavab kartına, sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq, imtahana öz yerinə başqasını gön¬dərmək;
nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün müraciət etmək;
cavab kartını nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

Abituriyentin 21-ci bənddə göstərilən hərəkətlərə yol verməsi halları TQDK tərəfindən aşkar edildikdə onun müsabiqə (imtahan) nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.